# Şuşa Qlobal Media Forumu:

## Dezinformasiyaya qarşı mübarizə və Azərbaycandan dünyaya mesajlar

**Müasir dünyada dezinformasiyanın sürətlə yayılması inkişaf və qlobal sabitlik üçün əsas təhlükələrdən biri kimi qiymətləndirilir. Texnologiyanın müxtəlif sahələrdə yaratdığı geniş imkanlarla yanaşı, məlumat axınının və informasiya kanallarının artması düzgün məlumatlandırma mexanizmlərinin qurulması, eləcə də insanların etibarlı məlumatı ayırd etməsi üçün yeni yanaşmaların, vasitə və mexanizmlərin tətbiqini zəruri edir. Şuşa Qlobal Media Forumu müasir dövrdə dezinformasiya ilə bağlı dolğun təsəvvürün formalaşdırılması, onun doğurduğu mənfi nəticələrin araşdırılması və bu problemlə mübarizədə səmərəli həll yollarının müəyyənləşdirilməsi baxımından mühüm platformadır. Forum müxtəlif ölkələrdən gələn rəsmilər, media və vətəndaş cəmiyyəti dövlət və biznes strukturlarının təmsilçiləri, media azadlığının müdafiəçiləri, beynəlxalq təşkilatların nümayəndələri və media ekspertləri üçün fikir mübadiləsi və birgə fəaliyyət mühitini təmin edəcəkdir. Qlobal media mühitindəki mövcud tendensiyaların dərin təhlili, rəqəmsal dövrdə dezinformasiyanın yaratdığı problemlərə qarşı innovativ həll üsullarının axtarılması, qabaqlayıcı strategiyaların işlənməsi, həmçinin bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və möhkəmləndirilməsi Forumun əsas məqsədlərindəndir.**

Forum aktual mövzuların müzakirəsi üçün platforma rolunu oynayır. Ötən il iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib. Prezidenti İlham Əliyev Forumda iştirak edib və sualları cavablandırıb. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayıb.

Bu Forum keçirildikdən sonra dünya mətbuatının da diqqət mərkəzində olub. Nüfuzlu KİV-lər tədbirlərlə bağlı geniş məqalə və xəbərlər dərc ediblər. Məsələn, dünyanın nüfuzlu nəşrlərindən olan "Reuters" yayımladığı məqalədə Prezident İlham Əliyevin Forumdakı çıxışında Fransanın müstəmləkə altında saxladığı ərazilərlə bağlı fikirlərinə geniş yer verib. Qeyd olunub ki, Prezident İlham Əliyev kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyini, Qəmər adaları, Mayot adası kimi ərazilərin hələ də kolonial idarəçilik altında olduqlarını bildirib. Məqalədə həmçinin Azərbaycan hakimiyyətinin Fransanı, Azərbaycan və Ermənistan arasındakı otuz illik münaqişəyə son qoymaq, Azərbaycanın öz torpaqlarını geri qaytarmaq şərti ilə sülh müqaviləsinə nail olmaq səylərində və Ermənistanın xeyrinə qərəzli olmaqda ittiham etdiyi də yazılıb. İtaliyanın "MarketScreener", "Agenzia Nova", "Color News" və "Avia-pro" kimi nüfuzlu xəbər saytlarında dərc olunan məqalələrdə Azərbaycan Prezidentinin Şuşaya gələn müxtəlif ölkələrin jurnalistləri, beynəlxalq ekspertlər və politoloqların suallarına verdiyi ətraflı cavablar geniş şəkildə şərh edilib. Həmçinin, Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülh prosesi barədə səsləndirdiyi fikirlərdən sitatlar gətirilib və bu mövzuya xüsusi diqqət ayrılıb. Anadolu Agentliyi yazırdı ki, Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda Azərbaycanın ev sahibliyi etdiyi COP29 ilə bağlı ətraflı məlumat verilmişdi. Azərbaycanın energetika nazirinin müavini və COP29-un icraçı direktoru Elnur Soltanov forum iştirakçılarına COP29-un gündəliyinə milli, regional və qlobal səviyyəli məsələlərin daxil edildiyini, konfransın gündəliyində 14 məsələnin yer aldığını, yaşıl dəhlizlərin və su anbarlarının yaradılması, eləcə də su qıtlığı problemlərinin müzakirə olunacağını bildirmişdi.

Qeyd edək ki, beynəlxalq əhəmiyyətli bu tədbir yalnız müzakirə etdiyi mövzunun aktuallığı ilə deyil, həm də keçirildiyi məkan baxımından xüsusi əhəmiyyət daşıyırdı. Birinci Şuşa Qlobal Media Forumu "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusuna həsr olunmuşdusa, ötənilki Forum günümüzün qlobal çağırışlarına uyğun olaraq "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusu ətrafında fikir mübadiləsi aparıldı. Forum çərçivəsində dövlətimizin başçısı mühüm məqamları tədbir iştirakçılarının diqqətinə çatdıraraq, Azərbaycanın informasiya müharibəsində qazandığı uğurları və bu istiqamətdə həyata keçirilən strategiyaları xüsusi vurğuladı.

Bu həqiqətlərin məhz Qarabağın incisi sayılan Şuşadan beynəlxalq ictimaiyyətə çatdırılması böyük rəmzi məna daşıyırdı. Otuz il işğal altında qalan və bu illər ərzində torpaqlarına qovuşacağı günə ümidini heç vaxt itirməyən xalqımız, bu gün azad Şuşanın beynəlxalq diplomatik mərkəzə çevrilərək Azərbaycanın həqiqətlərinin dünyaya təqdim olunmasına şahidlik etməkdən qürur duyur. Prezident İlham Əliyevin istər bu Forumda, istərsə də digər beynəlxalq tədbirlərdə etdiyi çıxışların əksəriyyətində 30 illik işğal dövrünün acı reallıqları, 44 günlük İkinci Qarabağ müharibəsinin tarixi qələbəsi və yalnız bir günlük antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində suverenliyin tam bərpa olunması kimi mühüm faktlar xüsusi yer tutur. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycanın haqq səsi indi bütün dünyaya çatdırılır və bu prosesdə Şuşa kimi tarixi və mədəni əhəmiyyətə malik şəhərin diplomatik mərkəzə çevrilməsi həm simvolik, həm də strateji baxımdan mühüm hadisədir. Prezident İlham Əliyevin çıxışları hər zaman dərin məzmunlu mesajlar və ciddi siyasi çağırışlarla seçilir və Forumdakı nitqində beynəlxalq aləmdə hökm sürən ikili standartlar və bu kontekstdə mövcud reallıqlara qarşı qərəzli yanaşmalara diqqət çəkdi. Bildirdi ki, qəsdən təhrif edilən, natamam və manipulyativ xarakter daşıyan hesabatların əsas mənbəyi Qərbdir və bu cür məlumatlar artıq gündəlik həyatımızın adi bir hissəsinə çevrilib. Bir vaxtlar bu hallara təəccüblənir, hətta məyus olurduqsa, indi buna biganə yanaşırıq. Prezident vurğuladı ki, zaman keçdikcə Qərbin siyasi dairələrində həqiqətlər tədricən üzə çıxır və Azərbaycana bərabərhüquqlu tərəfdaş münasibəti formalaşır. Azərbaycanın xarici siyasəti isə qarşılıqlı hörmətə, anlaşmaya, ümumi maraqların nəzərə alınmasına və xalqlarımız arasında əsrlər boyu mövcud olmuş dostluq əlaqələrinə əsaslanır. Dövlət başçısı əlavə etdi ki, biz diqqətimizi xalqımızın rifahına və ölkəmizin inkişafına yönəltdik, Avropa Parlamentində və ya Avropa Şurasında səslənən qərəzli bəyanatlara və əsassız dedi-qodulara isə heç bir əhəmiyyət vermədik.

Forumda dövlətimizin başçısının diqqət göstərdiyi mövzulardan biri də türk dünyasının birliyinin gücləndirilməsi məsələsi oldu. Ölkə rəhbəri bildirdi ki, Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair baxışlarım tamamilə aydındır. Təşkilatın çox böyük gələcəyi var. Təşkilatı daha da yüksək səviyyəyə qaldırmaq üçün ortaq səylərin lazım olduğunu vurğulayan dövlət başçısı qeyd etdi ki, biz birliyi daha da gücləndirməklə Türk Dövlətləri Təşkilatını dünya çapında güc mərkəzinə çevirməliyik. Bu gün bir neçə beynəlxalq təşkilat var, bəziləri böhran içində, bəziləri tənəzzüldə, Türk Dövlətləri Təşkilatı isə yüksəlişdə. İkinci Qarabağ müharibəsi dövrünün reallıqlarından bəhs edərkən qardaş Türkiyə ilə yanaşı, Pakistanın da siyasi və mənəvi dəstəyinin xalqımızda doğurduğu hisslər daim önə çəkilir, bu dəstəklərin ölkəmizə böyük güc verdiyi xüsusi vurğulanır. Tarixi Zəfərimizdən sonrakı dövrdə Azərbaycan-Türkiyə və Azərbaycan-Pakistan münasibətlərində yeniliklər, müxtəlif istiqamətlər üzrə əlaqələrin daha da möhkəmləndiyi diqqətdən kənarda qalmır. Azərbaycanla Türkiyə arasında media sahəsində əməkdaşlığa dair Memorandumun imzalanması, Ortaq Media Platformasının yaradılması da bunun bariz nümunəsidir. Bu baxımdan dövlətimizin başçısı Forumdakı çıxışında bu məsələlərə də diqqət yönəltdi. Pakistan tərəfindən hər zaman qardaş dəstəyi hiss etdiyimizi xatırlatdı və buna görə bir daha minnətdarlığını bildirdi.

Forumda müzakirə olunan əsas mövzulardan biri də Qərbi Azərbaycan məsələsi olub. Prezident İlham Əliyev çıxışında bildirib ki, azərbaycanlılar hələ XX əsrin əvvəllərində - 1918-ci ildə və İkinci Dünya müharibəsindən sonra Qərb ölkələrində yaşayan ermənilərin Ermənistana köçürülməsi və onların yerləşdirilməsi üçün uydurulmuş bəhanə ilə indiki Ermənistan ərazisindən deportasiyaya məruz qalıblar. Dövlət başçısının sözlərinə görə, 1940-1950-ci illərdə sovet hökuməti tərəfindən bir neçə qərar qəbul edilib və nəticədə yüz minlərlə azərbaycanlı Qərbi Azərbaycandakı qədim yurdlarından sürgün olunaraq, təbii-iqlim şəraiti tamamilə fərqli olan və yaşamaq üçün əlverişsiz Kür-Araz ovalığına köçürülüb. Çətin iqlim və məişət şəraiti səbəbindən deportasiya olunanların bir çoxu həyatını itirib. Prezident əlavə edib ki, prinsip etibarilə bu prosesin əsası 1980-ci illərin sonlarında baş verən etnik təmizləmələrlə qoyulub. Dövlət başçısı qeyd edib ki, bütün bu faktlar Qərbdə və o dövrün Rusiyasında, xüsusilə də 1990-cı illərin rus media məkanında işıqlandırılmayıb. Əksinə, Qafan və digər bölgələrdə azərbaycanlıların vəhşicəsinə deportasiyası barədə tam susqunluq nümayiş etdirilib, Ermənistanın uydurma hekayələrinə isə birtərəfli dəstək göstərilib. Prezident əlavə edib ki, sentyabrın 20-də Azərbaycan separatizmə son qoyaraq suverenliyini tam bərpa etdikdən sonra erməni əhalisinin nümayəndələri ilə bir neçə görüş keçirilib, lakin nəticə əldə olunmayıb. Təbii ki, biz Ermənistan hökuməti tərəfindən də eyni yanaşmanı gözləyirik. Biz onlardan açıq-aydın bəyanat gözləyirik ki, bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar, yaxud oradan didərgin salınanların övladları və nəsilləri öz tarixi torpaqlarına necə qayıda və həmin yerlərə gedə bilərlər, yaxud həmin torpaqlarda necə yaşaya bilərlər.

Forumda Azərbaycanın reallıqları içərisində, xüsusilə iqtisadi nailiyyətlərə diqqət yetirildiyi vurğulanıb. Qeyd olunub ki, ölkəmizin enerji sahəsində əldə etdiyi böyük uğurlar, yeni əməkdaşlıq formatlarının yaradılması üçün mövcud potensial imkanlar və Azərbaycan qazının Avropaya nəqlinin ikiqat artırılmasının əsas hədəflərdən biri olması geniş müzakirə mövzusu olub.

**Musa BAĞIRLI,**
**"Respublika".**